Azərbaycan Respublikası
Ailə, Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsi

# AİLƏ MƏSƏLƏLƏRİ SAHƏSİNDƏ 2025-Cİ İL ƏRZİNDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR

# BÜLLETEN

@aileqadinusaq

@aileqadinusaq

@AileQadinUsaqProblemleriUzreDovletKomitesi

@aileqadinusaq

https://family.gov.az/az

Telefon: (+994 12) 498 00 92
E-poçt: office@family.gov.az
Faks: (+994 12) 493 58 72
Ünvan: Ü.Hacıbəyli 80, Hökumət Evi, IV Qapı

cyanmagentayellowblack

**Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi ilə 2025-ci ildə hazırlanıb**

2025-ci il ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən ailə institutunun möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərin qorunması və təbliği, sosial həssas ailə qruplarına göstərilən dəstəyin genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

## ► Normativ-hüquqi tənzimləmə

2025-ci il ərzində ailə institutunun qorunması və məişət zorakılığına qarşı mübarizə sahəsində normativ-hüquqi tənzimləmənin gücləndirilməsi məqsədilə “Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası”nda dəyişikliklər edilmişdir.

## ► Ümumi fəaliyyət göstəriciləri

2025-ci il ərzində ailə məsələləri üzrə ümumilikdə **90 təlim, seminar və görüş** təşkil olunmuş, bu tədbirlərdə **8129 nəfər** iştirak etmişdir. Tədbirlər respublikanın müxtəlif şəhər və rayonlarını əhatə etməklə geniş auditoriyanı əhatə etmişdir.

90
TƏLİM, SEMİNAR VƏ GÖRÜŞ

8129
İŞTİRAKÇILAR

## ► Ailə institutunun möhkəmləndirilməsi üzrə tədbirlər

Türk Dövlətləri Təşkilatının Ailə Məsələləri və Sosial Siyasət Sahəsinə Məsul Nazir və Qurum Rəhbərlərinin 2-ci iclası çərçivəsində 150 nəfərin iştirakı ilə **“Gənc Ailə Forumu”** keçirilmiş və Forum çərçivəsində **“Milli mədəniyyətimizi, kimliyimizi və dəyərlərimizi keçmişdən gələcəyə daşıyan körpü - Ailə”** mövzusunda 2 panel müzakirəsi təşkil olunmuşdur.
Ailənin cəmiyyət həyatında dayanıqlı təməllər üzərində qurulması, milli-mənəvi dəyərlərin gənc nəsillərə ötürülməsi və ailə institutunun müasir çağırışlara uyğun inkişafı məsələləri ətrafında geniş fikir mübadiləsi aparılmışdır.





## ► Qlobal dialoq



Dövlət Komitəsinin sədri **Bahar Muradovanın rəhbərliyi ilə nümayəndə heyəti** Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyinin təşkilatçılığı ilə İstanbul şəhərində keçirilən **Beynəlxalq Ailə Forumunda iştirak etmişdir**.





Türk Dövlətləri Təşkilatının Ailə Məsələləri və Sosial Siyasət Sahəsinə Məsul Nazir və Qurum Rəhbərlərinin “Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər” mövzusunda 2-ci iclası və ekspertlərin görüşü Bakı şəhərində keçirilmişdir.






Tədbir çərçivəsində “Orta Dəhliz 360°: Geosiyasətdən Rəqəmsal Transformasiyaya, Ailədən Yaşıl İnkişafa” və “Güclü ailələr, güclü toplumlar: TDT ölkələrində ailəni dəstəkləyici siyasətlər” adlı yan tədbirlər keçirilmişdir.





İclas çərçivəsində ölkəmizdə səfərdə olan Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev, Özbəkistan Respublikasının məşğulluq və yoxsulluğun azaldılması nazirinin müavini Turdiboyeva Rano ilə görüş təşkil olunmuşdur.





Dövlət Komitəsinin nümayəndə heyəti Serbiya Respublikasının Ailə Rifahı və Demoqrafiya Nazirliyinin təşkilatçılığı ilə Belqrad şəhərində keçirilən 3-cü “Serbiya, bizim ailəmiz” mövzusunda konfransda iştirak etmişdir.








## ► Maarifləndirmə tədbirləri

10 mövzu

57 maarifləndirici görüş

5620 nəfər iştirakçı








► “Ailə, ailə dəyərləri və ənənələr”;

► “Uşaqların vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi”;

► “Sağlam ətraf mühit, sağlam gələcək”;

► “Gender bərabərliyi ana bətnindən başlayır! Gender əsaslı uşaq seçiminə YOX deyək!”;

► “Reproduktiv sağlamlıq və ailə planlaşdırılması”;

► “Təhlükəsiz reproduktiv sağlamlıq davranışlarının və sağlam həyat tərzi vərdişlərinin formalaşması”;

► “Erkən evlilik və qohum evliliklərinin mənfi nəticələri”;












## ► İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət

### Məqsəd

İşğaldan azad olunmuş ərazilərdə məskunlaşan ailə və uşaqlara psixo-sosial dəstək göstərmək, onların yeni mühitə uyğunlaşmasını asanlaşdırmaq və sosial ünsiyyət bacarıqlarını inkişaf etdirmək məqsədi ilə təlimlər təşkil olunmuşdur.

### İcra

Layihə çərçivəsində Xocalı və Cəbrayıl şəhərlərində uşaq və valideynlərin iştirakı ilə təlimlər keçirilmiş və ümumilikdə 120 nəfər iştirak etmişdir. Təlimlər psixologiya üzrə fəlsəfə doktoru, dosent Aynur Bünyatova tərəfindən aparılmışdır. Uşaqlara “mən konsepsiyası”, emosiyaların idarə olunması və sağlam münasibətlərin qurulması barədə məlumat verilmişdir. Valideynlərlə görüşlərdə uşaqların yaş xüsusiyyətləri və yeni şəraitə uyğunlaşma zamanı yaranan çətinliklər müzakirə olunmuşdur.

### Nəticə

Təlimlər nəticəsində uşaqların sosial və emosional bacarıqları inkişaf etdirilmiş, valideynlərin məlumatlılığı artırılmış və ailələrin yeni mühitə uyğunlaşmasına psixo-sosial dəstək göstərilmişdir.










## ► Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyəti

*2025-ci ildə Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyətindən ümumilikdə 29 746 nəfər faydalanmışdır.*

Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən milli-mənəvi dəyərlərin təbliği, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində 701 tədbir və təlim keçirilmişdir. Tədbirlərdə 26 032 nəfər iştirak etmişdir.

Maarifləndirmə məqsədilə 3370 ədəd maarifləndirici vərəqlər paylanılmışdır.

Mərkəzlər tərəfindən aşağıdakı mövzular üzrə 137 görüş keçirilmişdir:

◊ “Ailə dəyərlərinin və ənənələrinin təbliği”;
◊ “Reproduktiv sağlamlıq və ailə planlaşdırılması”;
◊ “Sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması”;
◊ “Erkən evliliklərin və qohum nikahlarının qarşısının alınması”.

### Uşaq və Ailələrə Dəstək Mərkəzləri — 2025 (Göstəricilər)

**Faydalananların sayı**
Ümumi faydalanan: 29 746 nəfər

**Tədbir və təlimlər**
Keçirilib: 701 tədbir/təlim
İştirak: 26 032 nəfər

**Maarifləndirici materiallar**
Paylanılıb: 3 370 ədəd vərəq

**Görüşlər (mövzular üzrə)**
Cəmi: 137 görüş
• Ailə dəyərlərinin və ənənələrinin təbliği
• Reproduktiv sağlamlıq və ailə planlaşdırılması
• Sağlam həyat tərzi vərdişlərinin formalaşdırılması
• Erkən evliliklərin və qohum nikahlarının qarşısının alınması





## ► Müraciətlər və səyyar sosial xidmətlər

2025-ci ildə UADM-lərə 1888 müraciət daxil olmuş, onlardan 557-si müsbət həll edilmişdir. Əhalinin sosial xidmətlərə çıxış imkanlarının artırılması məqsədilə 10 səyyar "Açıq qapı" günü, 2 media-tur keçirilmiş, ümumilikdə 809 nəfərin müraciəti dinlənilmişdir.
UADM əməkdaşları tərəfindən 1159 ailə səfəri həyata keçirilmiş, erkən evliliklə bağlı 36 fakt araşdırılmış, 22 halın qarşısı alınmışdır. Təhsildən yayınan 81 uşaq yenidən təhsilə cəlb edilmişdir.

### UADM fəaliyyət göstəriciləri — 2025

**1 UADM müraciətləri**

**1888** daxil olmuş müraciət

**557** müsbət həll edilmiş

**2 Səyyar "Açıq qapı" günləri**

**10** keçirilmiş gün

**809** müraciəti dinlənilən şəxs

**3 Ailə səfərləri və erkən evlilik**

**1159** ailə səfəri həyata keçirilib

**36 / 22** araşdırma / qarşısı alınıb

**4 Təhsilə yenidən cəlbetmə**

**81** uşaq yenidən təhsilə cəlb edilib

### ► İsmayıllı və Şüvəlan Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə mediatur







### ► "Açıq qapı" günləri







## ► İctimaiyyətlə əlaqələr və media fəaliyyəti

Dövlət Komitəsi tərəfindən **Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş “Ailə, qadın və uşaq məsələləri media müstəvisində: çağırışlar və perspektivlər” mövzusunda konfrans** keçirilmişdir.






Konfrans çərçivəsində jurnalistlər arasında elan edilmiş **“Azərbaycanın işıqlı qadınları: ilhamverən hekayələr” adlı videosüjet və “Ailə mövzularının işıqlandırılması üzrə ən yaxşı yazı” müsabiqələrinin** qalibləri mükafatlandırılmışdır.






Ailə, qadın və uşaq məsələləri sahəsində həyata keçirilən dövlət siyasətinin ictimaiyyətə çatdırılması məqsədilə Dövlət Komitəsi sədrinin **“Ailə, qadın və uşaq məsələləri Azərbaycan qanunvericiliyində” mövzusunda mətbuat konfransı** keçirilmişdir.



Tədbir zamanı Komitənin media ilə əməkdaşlığının fəaliyyətin əsas prioritet istiqamətlərindən biri olduğu qeyd edilmiş, ailə, qadın və uşaq hüquqları sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində görülən işlər, son illərdə qəbul edilmiş qanunvericilik aktları və dövlət proqramları barədə məlumat verilmişdir.

## ► Analitik araşdırmalar

Ailə institutunun möhkəmləndirilməsi və ailəyə təsir edən amillərin öyrənilməsi məqsədilə "Sosial-iqtisadi səbəblərin ailə institutuna təsirinin öyrənilməsi" və "Erkən evliliyin inzibati ərazi bölgüsü üzrə risk xəritəsinin formalaşdırılması" üzrə analitik təhlillər hazırlanmışdır.






## ► Qurumlararası əməkdaşlıq

Sumqayıt Şəhər İcra Hakimiyyəti, Sosial Xidmətlər Agentliyi və Mediasiya Şurası ilə birgə **"Mediasiya – yeni trendlər və gözləntilər" mövzusunda ictimai müzakirə-konfrans** keçirilmişdir.



**15 may – Beynəlxalq Ailə Günü** ərəfəsində TƏBİB ilə birgə əməkdaşlıq çərçivəsində Hacıqabul, Sabirabad, Saatlı və Ağdam rayonlarında həssas ailələr üçün tibbi müayinə aksiyası təşkil edilmişdir.

Eyni zamanda ali təhsil müəssisələri ilə birgə əməkdaşlıq çərçivəsində ailə dəyərlərinin qorunmasına həsr olunmuş elmi-praktik konfrans keçirilmişdir.






◊ **Mediasiya Şurası** ilə əməkdaşlıq çərçivəsində beynəlxalq ekspertin iştirakı ilə **90 nəfər mediator üçün 8 günlük seminar** təşkil edilmişdir.

◊ Seminar çərçivəsində beynəlxalq ekspert tərəfindən mövcud təcrübə ilə bağlı rəy və təkliflər Dövlət Komitəsinə təqdim edilmişdir.





## ► Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq və ictimai iştirakçılıq

“İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”yə uyğun olaraq, 2025-ci ildə 7 qeyri-hökumət təşkilatının nümayəndəsi Dövlət Komitəsi yanında İctimai şuraya üzv seçilmişdir. İctimai Şuranın fəaliyyətinin dəstəklənməsi və institusional əməkdaşlığın gücləndirilməsi istiqamətində görüşlər keçirilmişdir.

### İctimai Şura və QHT-lərlə əməkdaşlıq

**İctimai Şuraya seçilən üzvlər**
**7**
QHT nümayəndəsi Dövlət Komitəsi yanında İctimai şuraya üzv seçilib

**Seçim prosesi**
**2025**
“İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”yə uyğun aparılıb

**Əməkdaşlıq edilən təşkilatlar**
**5**
İctimai birlik və qeyri-hökumət təşkilatı ilə birgə fəaliyyət

**Birgə tədbir və layihələr**
**15**
Dövlət Komitəsi və tərəfdaş QHT-lərlə reallaşdırılan tədbir və layihələr

Dövlət Komitəsi 2025-ci il ərzində 5 ictimai birlik və qeyri-hökumət təşkilatı ilə birlikdə 15 tədbir və layihə reallaşdırmışdır.





## ► Könüllülük fəaliyyəti və gənclərin iştirakı

Dövlət Komitəsində könüllü fəaliyyət göstərmək üçün müraciət edən 600-dən çox gənc arasından (3 qrup üzrə) 72 nəfər proqrama qəbul edilmiş, onlardan 64 nəfər könüllülük proqramını uğurla başa çatdırmışdır.
Könüllülərin bilik və bacarıqlarının artırılması məqsədilə Dövlət Komitəsində 22 təlim təşkil edilmiş, Şüvəlan Uşaq və Ailələrə Dəstək Mərkəzinə 2 səfər həyata keçirilmiş, həmçinin Komitə rəhbərliyi ilə 5 görüş keçirilmişdir.

**Dövlət Komitəsi – Könüllülük proqramı (2025)**

**Müraciət edən gənclər**
**600+**
- 3 qrup üzrə seçilmə

**Proqrama qəbul**
**72**
- Seçilən iştirakçı sayı

**Uğurla başa çatdıranlar**
**64**
- Proqramı tamamlayan könüllülər

**Bilik və bacarıqların artırılması**
- 22 təlim təşkil edilib
- Şüvəlan UADM-ə 2 səfər
- Komitə rəhbərliyi ilə 5 görüş





## “Ailə Könüllüləri” layihəsi

***2020-ci ildən etibarən həyata keçirilən layihəyə 33 rayondan, 60 ailə qoşulub.***
Əsas məqsədi müxtəlif ünsiyyət vasitələri və əlaqə mexanizmlərindən istifadə etməklə milli-mənəvi dəyərlərimizin, sağlam həyat tərzinin, möhkəm ailə modelinin təbliği, bilik və təcrübələrin ötürülməsi yolu ilə müsbət həyat nümunələrinin cəmiyyət arasında yayılması, həmçinin ailələrin asudə vaxtlarının səmərəli təşkilinə töhfə verməkdir.

## Xeyirxahlıq ailədən başlayır” adlı təlim

2020-ci ildən keçirilən “Ailə könüllüləri” layihəsinin davamı olaraq **“Xeyirxahlıq ailədən başlayır” adlı təlim** keçirilib.
Təlimin keçirilməsində məqsədi ailələr arasında könüllülük fəaliyyətini təşviq etməklə, ailə institutuna sosial və psixoloji dəstək göstərmək, həmçinin ailə dəyərlərinin möhkəmləndirilməsinə dair yeni təşəbbüslərin formalaşdırmaqdır.







## “Ailələrimizi tanıyaq” layihəsi

Dövlət Komitəsi 2020-ci ildən etibarən sağlam və güclü təməllər üzərində qurulan, ailə dəyərlərinə önəm verərək yaşadan nümunəvi ailələri cəmiyyətə tanıtmaq və bu istiqamətdə təşviqat işini aparmaq məqsədilə **“Ailələrimizi tanıyaq”** layihəsini həyata keçirir.  Ötən il də layihə çərçivəsində nümunəvi ailələr ilə müsahibələr aparılmış və onların örnək həyat yolu rəsmi internet resurslarında işıqlandırılmışdır.













